31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi günüdür

# Azərbaycanlı adı ilə fəxr edənlər

Vətən sevgisinin ünvanı olmaz. İnsan harada yaşayırsa, yaşasın, ona xas olan ürək də, düşüncə də onunla yaşar. Sevgi də ünvansızdır. Çünki onun da daşıyıcısı ürək, yaradıcısı duyğulardır. İnsanın ən böyük neməti isə onun ana-ata yurdudur.

Çünki öz yurduna sevgisi elə doğuluşdan yaranar və qanı ilə insan orqanizmində formalaşar.

Ana Vətən kəlamı insanın beyninə həkk olunar və onun həyatının əbədiyaşar yaşıl işığına çevrilər. Vətəndən nə qədər uzaq yaşasa da onun sevgisi qəlbini tərk etməz. Vətən sevgisi, milli mənsubiyyət insanın yaşı ilə bərabər yetkinləşər.

**Bu bayramın vacibliyi**

Elə bayramlar var ki, tədricən öz qüvvəsini itirir və sabiqləşir. Lakin elə bayramlar var ki, təsis olunması bir tarixi zərurətlilik yaradır. Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əsası 1989-cu il dekabrın sonlarında Naxçıvanda sərhədlərin (SSRİ-İran sərhədləri) açılması zamanı qoyulub. 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd edilməsi artıq bütün dünya azərbaycanlıları üçün zərurətə və mənəvi ehtiyaca çevrilib. Ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəyliyin yaradılmasında bu tarixi gün mühüm rol oynayır.

2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsində dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar da yüksək dərəcədə fəallıq göstərdilər, daha sıx birləşdilər. Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin məkrli təxribatlarına qarşı etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Zəfərimizə layiqli töhfə oldu. Vətən müharibəsi xalqımızın mübarizliyini bütün dünyaya nümayiş etdirdi. Eyni zamanda bu savaşda xalqımız İlham Əliyevin rəhbərliyi ilə milli həmrəyliyin ən mükəmməl nümunəsini yaratdı.

Bütün dünyada yaşayan azərbaycanlıların yekdil düşüncə tərzi və düşüncə tərzinin real bir ideoloji məqsədə çevrilməsi məhz bu günkü bayram və tarixi günümüzün əsas qayəsidir.

Bu gün dünyanın hər bir obasında azərbaycanlılar yaşayır, işləyir, övladları-ailəsi ilə bərabər; azərbaycançılıq ideologiyasını təbliğ edir. Xüsusilə də öz sənəti, peşəsi ilə, əməlləri ilə.

Azərbaycan dövlətinin tarixi keçmişini, xalqın qəhrəmanlığını, dilinin, dininin həmişə insanlığın formalaşmasında müstəsna rol oynadığını öz diasporasında təbliğ edir və yaşadırlar. Vətənpərvər və milli mənəviyyatca zəngin olanlar öz işi ilə yaşadığı məkanda nümunəvi insan kimi tanınırlar.

**Nərgizlər...**

Bu günkü iki azərbaycanlı gənc xanım olan Nərgiz Sadiq qızı Qasımova və Nərgiz Nəcəf qızı Osmanova həkimdirlər. Ayrı-ayrı ölkələrdə yaşasalar da eyni peşə sahibi olan bu gənclər yaşadıqları məkanda nümunəvi davranış tərzi və ziyalılığı ilə hörmət və qazanmışlar.



O insan ki, bütün düşüncə tərzini, yəlbinin arzularını ağlı ilə birləşdirir, o zaman həyatda öz yolunu seçə bilir və xalqına, insanlara yaşam dövründə faydası olur. Belə insanlar həmişə fərqli xarakteri ilə seçilər və tanınarlar.

Qalibə və Sadiq Hacıyevlər Vəndam qəsəbəsində doğulmuşlar. Qohumdur və ailə qurduqdan sonra Bakıda yaşamışlar. 2 övladları olmuş və onları milli-mənəvi cəhətdən zəngin, vətənpərvərvər ruhda böyütmüşlər.

Nərgiz hələ uşaqlıqdan təhsil almaq, bilik və bacarığı ilə gözəl mütəxəssis olmaq istəyirdi. O, 5 yaşında birinci sinfə getmiş və orta təhsilini Bakıdakı Zəkalar Litseyində davam etdirmişdir. 9-cu sinifdə oxuyarkən yanvar ayında ekstern imtahan verərək XI sinfə qəbul olunmuş, orta təhsili 2 il tez bitirmişdir.

2002-ci ildə Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə qəbul olunmuşdur. O illərdə universitetin "Təbib" qəzetində onun haqqında qeyri-adi tələbə kimi yazı da verilmişdi. Nərgiz Qasımova 21 yaşında universiteti bitirmişdir.

İlk əmək fəaliyyətinə Bakıdakı 5 saylı xəstəxanada qastro enterologi1ya şöbəsində mədə-bağırsaq həkimi kimi başlamışdır.1 il işlədikdən sonra Türkiyədə İstanbul Mərmərə Universitetində qastroenterologiya bölməsində təkmilləşmə kursu keçmişdir. Buna görə də 1 il Türkiyədə yaşamışdır.-Sonra Azərbaycana gəlmiş, Aristokrat özəl klinikasında qastroenterologiya şöbəsində işə başlamışdır. Bir il yarım burada işləmişdir.Həmin illər Türkiyənin Acı Badəm xəstəxanası Azərbaycanda öz filiallarını açmaq istəyirdi. Həmçinin Nərgiz həkimə də bu xəstəxanada işləmək dəvəti gəlmişdi. Həmçinin onu İstanbula, Acı Badəm xəstəxanasına dəvət edirlər. O, 6 ay ərzində burada - qastroenterologiya şöbəsində işlədikdən sonra yenidən Bakıya qayıdır. Artıq Bakıda Tstanbul Acı Badəm xəstəxanasının filialı fəaliyyətə hazır idi. Nərgiz həkimHəyat-Klinik Acı Badəm xəstəxanasına qastroenterologiya şöbəsinə Departament müdiri kimi işə dəvət olundu. 2 il burada işlədikdəçn sonra Real hospitalına baş həkimin müavini kimi işləmək dəvəti alan Nərgiz Qasımova həm də burada qastroenterologiya şöbəsinin başkanı (müdiri) kimi işə başlayır.3 il də burada əmək fəaliyyətini davam etdirir.



Amerikada həkim işləmək üçün imtahan keçirildiyini öyrənən Nərgiz həkim çətin də olsa o imtahanlarda iştirak edir və yüksək nəticə əldə edir.

Ailəsi ilə birgə Amerikaya köçür.

Hazırda Amerikada Yunayted Nous Qrup deyilən bir tibb şirkətində çalışır və Nyucersi Ştatında yaşayır. Həmin şirkətin özünəməxsus hospitalları, kelinikaları, tibb ofisləri vardır. Nərgiz Qasımova 2 il bu şirkətdə işlədikdən sonra burada da bir neçə departament üzrə daxili xəstəliklər - qastroenterologiya və infeksion xəstəlikləri üzrə departament müdiri kimi işləyir.

Həkim peşəsi - milliyyətindən asılı olmayaraq insanlara xidmət edən, onların sağlamlığı keşiyində dayanan müqəddəs bir sənətdir. Azərbaycanı uzaq bir ölkədə təmsil etmək Nərgiz həkim kimi bir azərbaycanlı gəncinə fəxrdir. Onun savadlı bir mütəxəssis kimi ölkəmizi təmsil etməsi isə bizim fəxr və qürurumuzdur.

Nərgiz həkim həm də layiqli övlad, qayğıkeş həyat yoldaşı, anadır. 2 övladı var, qızı 13, oğlu 7 yaşındadır. Övladları oxuduqları məktəbdə fəallığı və savadı ilə fərqlənirlər. Həyat yoldaşı Kamran Qasımov isə kompüter texnologiyası üzrə mütəxəssisdir.

Nərgiz həkim Azərbaycan dilini və xalqının adət-ənənələrini həmişə qoruyub saxlayan və azərbaycanlıların həmişə həmrəy, həmfikir olmasına çalışır. O, azərbaycanlı olduğu üçün həmişə fəxr edir.

Nərgiz Osmanova- Qazaxıstan Respublikasının Aktau şəhərində anadan olmuşdur. Atası Nəcəf və anası Vüsalə Osmanovalar rayonumuzun Vəndam qəsəbəsində doğulmuş, böyümüşlər. Ailə qurduqdan sonra Nəcəf Osmanov ailəsi ilə birgə Aktau şəhərində yaşayır. Övladları Rəsul və Nərgiz qazax, rus və ingilis dillərindən təhsildə və əmək fəaliyyətində istifadə etsələr də, ana dilləri olan Azərbaycan dilini də mükəmməl bilir və ana-ata vətənlərinin dilində danışarkən özlərini daha sevincli sanırlar.

Nərgiz orta təhsilini başa vurduqdan sonra Rusiya Respublikasının Astarxan şəhərində Astraxan Dövlət Tibb Universitetinin müalicə fakültəsinə daxil olmuşdur. Universiteti bitirərək terapevt-həkim ixtisasına yiyələnmişdir. Təhsilini davam etdirərək bu universitetin ordinatoriyasına(endikrinoloq və UZİ) qəbul olmuşdur.

Həmçinin 1 ildir təhsilini davam etdirməklə bərabər Astarxan şəhərində Privoljsk rayonunun xəstəxanasının 1 saylı poliklinikasında həkim-terapevt işləyir.

Nərgiz Osmanova millətinə xas adət-ənənələri həmişə dəstəkləyir və riayət edir. O, həmçinin dövlətimizin tarixi keçmişini və bu günkü həyat tərzini, vətənpərvərliyin millətimizə xas olan başlıca xüsusiyyət kimi təbliğ edir və azərbaycanlı olduğunu özünə fəxarət sanır. Dünya Azərbaycanlılarının həmişə həmrəy olması onun ən böyük istəyidir.

**BİBİXANIM.**

---

(Əvvəli 4-cü səhifədə).

# Ağ rəngin sehrində

minnətdarlıq məktubları gəlmişdir. Məhz məktublardan birindən qısa sətirləri sizə təqdim etmək istərdim. Zarağan kəndindən olan xəstəsi Şakir Aslanov (2-ci qrup əlil) yazır ki, mən 4 dəfə ağır infakt keçirmişəm. Sonuncu dəfə ailəm məndən əlini üzsə də, İlqar həkimin sayəsində süni nəfəsvermə və müalicə ilə yenidən həyata qaytarılmışam. Fəxr edirəm ki, rayonumuzda belə həkim-ürək-damar kardioloqu var. İlqar həkim vətənpərvər və insanlığa xas bütün xüsusiyyətlərin xarakterində cəmləşdiyi biridir. Onun müsbət aurası xəstələrə ən böyük müalicədir.

Əlbəttə. Belə minnətdarlıq hissləri dolu təşəkkürlər onun haqqında həm yazılır, həm də söylənilir. Xalqın gözü tərəzidir deyirlər...

**Vətən ona oğul dedi...**

İlqar həkim vətənpərvər bir insandır. Xalqına, torpağına bağlılıq, vətənə sevgi hissi onda daha güclüdür. Elə buna görə də vətənin ona bir oğul kimi ehtiyacı olduğu bir zamanda döyüş bölgələrində oldu. 2020-ci ilin 27 sentyabrında başlanan qisas müharibəsində döyüşən igidlərimizin yanında, onların sağalamlığı keşiyində dayanmağı özünə müqəddəs borc sandı.

Füzuli, Cəbrayıl, Zəngilan, Laçın istiqamətində gedən döyüşlərdə yaralanan yüzlərlə əsgərlərimizin yarasına məlhəm etdi, gecə-gündüz, yorulmadan yaralılara qulluq etdi. Onun qayğısı yaralı əsgərlərimizin həm də psixologiyasına müsbət təsir göstərdi. Döyüşçülər onunla bərabər nə yaralanmaqdan, nə də ölümdən qorxardılar. Bilirdilər ki, öz şəfalı əlləriilə, cəsur ürəyilə İlqar həkim onlarladır.

İlqar həkim-Vətən Müharibəsi veteranıdır. O. Göstərdiyi xidmətlərə görə müxtəlif medallarla təltif olunmuşdur.

Onun ən böyük təltifi isə həyata qaytardığı Vətən igidlərinin həyatıdır.

İlqar İsmayılov həm nümunəvi övlad, qayğıkeş ailə başçısı, ata, gözəl qardaş, əmi, dayıdır. İnsanlığa və əsl vicdan sahibliyinə xarakterik biridir.

İnsan ta yaranışdan sual yüklü, istək yüklü, gözlərində maraq yükü. Nəfəsindən, qoxusundan tanır əziz insanları-ona həyat bəxş eyləyən anasını, atasını... Ona həyatı nəql edən nənəsini, babasını... Qəlbindəki arzulara həmdəm olan, arzuları çox zamanlar həmrəng olan qardaşını, bacısını... Torpaq üstdə ayaq açıb gəzən zaman, göy üzünə baxıb-baxıb sorar hər anhəyat verən, can verən kim, mənə ana?! Yuxarıda mavi dənizgöy qübbəsi nədir görən? Bəs mənim ayaqlarımı maqnit kimi çəkən də nə? Hər yaş üstdə yaş gəldikcə suallardan sual doğar, arzularsa tükənmədən hər kəsin öz daxilində bir-birini əvəz edər. Yaş üstünə yaş gəldikcə hər kəsin öz mənində suallar cavablanar, arzular haçalanar5. Yaş üstünə yaş gəldikcə insan beyni kainatı dərk edər və etdikcə də hər kəs bəşəriyyətin bir məfhumuna çevrilir.

Bax, insanın torpağa bağlılığı onun ayağı üstdə müvazinətini saxlamağından başlanır. Və insan həyata başlayır. Enişi-yoxuşuyla, sevinci-kədəriylə, xəstəsi-sağlamıyla həyat yaşam verir insana. Həkimlərsə... Ağ xalatın sehri ilə bu yaşamın mübariz keşikçiləri olurlar. Nə qədər insanı amansız xəstəliklərdən uzaqlaşdırır, həyatlarına həyat qatırlar. Həyat gözəldir, can şirin! Bu gözəlliyi ürək duyur, ürək həyatı tənzimləyir, yaşadır. İlqar həkim isə insanın yaşaması üçün ürəklərin ömrünü uzadır, sağlamlığını qoruyur. Ürək ritmləri insan ömrünün həyat simfoniyasıdır!

Ürəkləri qoruyan və insanın yaşam mücadiləsinin dayağı olan həkimlərdən biri-İlqar İsmayılov hər kəsə öz əzizi kimi diqqət və qayğı göstərir. Elə buna görə də, həm insanlığı, həm də öz peşəsi ilə hər kəsin rəğbətini qazanmışdır.

Nə yaxşı ki, onun kimi insanlar var! Onlar həyata davam üçün hər kəsə stimul verir. Sağlam yaşlanasız, uzun ömürlü olasınız, İlqar həkim! Çünki sizin ömrünüz onlarca, yüzlərcə insanın uzunömürlülüyü deməkdir.

**Bibixanım İSAYEVA.**